*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 7, 2025*
*Səh. 268-272*

https://doi.org/10.62837/2025.7.268

**BAHADURZADƏ RƏNA NİZAMİ qızı**
"Sumqayıt Dövlət Universitetinin nəzdində
Sumqayıt Dövlət Texniki Kolleci" PHŞ
müəllim
*bahadurzade.rena@mail.ru*

# MONOLOJI ŞİFAHİ NİTQİN İNKİŞAFINDA İSTİFADƏ OLUNAN VASITƏLƏR VƏ ONLARIN PSIXOLOJI XÜSUSIYYƏTLƏRI

**Xülasə**

Nitq insanların qarşılıqlı əlaqə və ünsiyyət vasitəsi olub, dilin ifadə imkanlarına əsaslanır. O, təfəkkürlə dialektik vəhdətdədir və insanın fikirlərini aydın, məntiqi ardıcıllıqla ifadə etməsinə şərait yaradır. Şifahi nitqdə tələffüz, intonasiya, mimika, jest və emosional çalarlar mühüm rol oynayır, yazılı nitq isə daha məhdud imkanlara malikdir.

Xüsusilə monoloji nitq şəxsin öz fikirlərini sərbəst şəkildə ifadə etməsini təmin edir və təhsildə əsas vəzifələrdən biri şagirdlərdə bu bacarığı inkişaf etdirməkdir. Düzgün tələffüz, söz və cümlə əlaqələrinin mənimsənilməsi, intonasiya qaydalarının öyrədilməsi şifahi nitqin inkişafı üçün vacib şərtlərdir.

Müasir dövrdə kitab, televiziya, kino, texniki vasitələr və müxtəlif rollu oyunlar şagirdlərin nitqini formalaşdıran mühüm amillərdəndir. Xarici dil öyrənən şagirdlər isə dil mühitinə daxil edilməklə həmin dildə düşünməyə və danışmağa alışdırılmalıdır. Bunun üçün dinləmə mətnləri, kino fraqmentləri və digər motivasiyaedici materiallardan istifadə böyük əhəmiyyət daşıyır.

Şagirdlərin nitqinin inkişafında yalnız linqvistik deyil, həm də psixoloji və fizioloji xüsusiyyətlər nəzərə alınmalıdır. Belə yanaşma həm ana dilində, həm də xarici dildə şifahi danışıq bacarığının möhkəmlənməsinə imkan yaradır.

**Açar sözlər:** nitq, inkişaf, məktəb, şagird, metod, xarici dil

Nitq, şəxsin müəyyən kollektiv üzvləri ilə qarşılıqlı əlaqə saxlamaq məqsədilə dildən istifadə etmək fəaliyyəti, informasiyanın ötürülməsi və qəbul edilməsidir. İnsanların dünyagörüşü və biliyindən asılı olaraq buna şüurlu şəkildə münasibət göstərərək onların modellərindən məqsədəuyğun istifadə nəticəsində öz nitqini qurur. Deməli, nitq yalnız dilin ifadə imkanları nəticəsində meydana gəlir. Çünki, nitq insan fəaliyyətinin məhsulu sayılır və onu cəmiyyətdə yaşadan amildir. Nitq vərdişləri durmadan inkişaf edir, təkmilləşir. Məlumdur ki, nitqlə təfəkkür arasında dialektik vəhdət mövcuddur. Tutduğu vəzifəsindən, sənətindən, peşəsindən asılı olmayaraq, hər bir mədəni şəxs öz fikrini sərbəst şəkildə qarşıdakı şəxsə çatdıra bilmək bacarığına malik olmalıdır. Nitqin inkişaf etdirilməsi bilavasitə fikrin məzmununun zənginləşdirilməsi ilə əlaqədardır.

Danışıq səsi formasında mövcud olan monoloji nitq son dərəcə fəal və sərbəst şifahi nitq növüdür. Monoloji nitq müxtəlif informasiyaların verilməsi və alınması funksiyasını yerinə yetirir. Bugünkü gündə ümumtəhsil məktəblərində öndə olan vəzifələrindən biri uşaqlarda istər ana dilində, istərsə də xarici dildə öz fikirlərini monoloji şəkildə ifadə etmək bacarığını aşılamaqdır. Monoloji nitqə yiyələnməyən insan fikirlərini aydın şəkildə ifadə edə bilməz. Hətta eşitdiklərini başa düşmək və məntiqi ardıcıllığı tarazlayıb onu olduğu kimi yadda saxlamaq imkanından məhrumdur. Bir insanın fikri dağınıqdırsa, düşünmə obyekti ona tam şəkildə məlum deyildirsə, onun məzmunu, mahiyyəti, daxili mənalılığı aydın dərk olunmursa, o zaman danışanın da nitqi dolaşıq və anlaşılmaz olacaq. Nitq təfəkkürdə yaranan obrazı, mənzərəni, fikir və düşüncəni olduğu kimi ifadə edə bilmir. Bəzən uşaqların nitqində mənasını bilmədiyi söz və ifadələri işlətməsi və ya hər hansı əşyanı tanıdığı, onun nəyə lazım olduğunu bildiyi halda adını bilməməsi buna əyani sübutdur. Beləliklə, nitq və təfəkkür arasında fərq meydana gəlir. Ona görə də şagirdlərin monoloji şifahi nitqi və təfəkkürü üzərində iş vəhdət təşkil etməlidir.

Şagirdlərdə monoloji nitqə yiyələnmək üçün ilk növbədə düzgün tələffüz vərdişlərinə yiyələnməlidirlər. Bir çox hallarda rast gəlinir ki, şagird danışır, lakin başqası dinləyərkən onu başa düşə bilmir. Bu kimi halları aradan qaldıra bilmək üçün şagirdlərin danışığında sözlərdəki səslərin, cümlələrdəki sözlərin, mətnlərdəki cümlələrin əlaqəsini yaxşı öyrənmələrinə nail olmaqdır.

Müşahidələr göstərir ki, xarici dildə şagirdlərin şifahi nitqinin inkişafı problemi hələ də lazımi şəkildə həlli yolunu tapmamışdır. Şifahi nitqin inkişafı, 1onun düzgün seçilən materialından asılıdır.

Müəllim intonasiya üzrə işlərə başlamazdan əvvəl şagirdlərin qalxan və enən intonasiya haqqında biliklərini yoxlamalıdır. Çünki, bəzən düzgün intonasiyaya riayət edilmədiyindən nitqin məzmunu şagirdlər tərəfindən təhrif olunur. Dinləmə mətnlərindən istifadə etməklə bu kimi çatışmazlıqları aradan qaldırmaq olar. Müasir texniki vasitələr bu gün buna şərait yaradır. İstər dinləmə mətnləri, istərsə də kinolardan göstərilən fraqmentlər özünün dinamikliyi, bədiiliyi ilə şagirdləri fəallaşdıraraq, onların yaradıcı qabiliyyətini, təsəvvürünü inkişaf etdirir. Çünki, kino şagirdlər üçün dil mühiti yaradır ki, onlar belə bir mühitdə canlı adamların xarici dildə nitqini eşidir, hadisələrin inkişafını görür.

Ölkəmizdə xarici dillərin tədrisi məsələsi üzrə uzun illərdən bəridir ki, dilçi alimlər elmi tədqiqat işləri aparmışlar. Aparılan işlərdə şagirdlərin şifahi nitqinin inkişaf etdirilməsi, onların xarici dildə danışması və eyni zamanda danışanın nitqini başa düşməsi məsələsi öz əksini tapmışdır. Bir vacib məsələni qeyd etmək lazımdır ki, şagirdlərə verilən dil materiallarını anlamaları, yadda saxlamaları üçün bir sıra linqvistik xüsusiyyətlər nəzərə alınsın. Şagirdin təfəkkürünün inkişafı, onun yaddaşının dayanıqlığı kimi xüsusiyyətlər eyni zamanda psixoloji və fizioloji cəhəti də nəzərə alınmalıdır.

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 7, 2025*
*Səh. 268-272*

Xarici dildə danışmaq bacarığı həm də ana dilini mükəmməl bilməklə əlaqəlidir. Şagird öz ana dilinin qayda-qanunlarını yaxşı mənimsəməsə, onu nitqində düzgün şəkildə işlətməyi dərk etməsə xarici dili öyrənə bilməz. Şagirdlər xarici dilin tədrisi zamanı müəyyən bilik, bacarıq və vərdişlər əldə edirlər. Bu vərdişlərin əldə edilməsində müəllimlərin üzərinə böyük vəzifə düşür. Şifahi nitqin inkişafı məsələsinə ciddi yanaşılmalı orta məktəblərdə əsas diqqət xarici dilin qrammatikasının tədrisinə deyil, daha çox şifahi nitqin inkişafına, şagirdlərin xarici dildə öz fikirlərini sərbəst ifadə edə bilməsinə yönəlməlidir.

Texniki vasitələrin təlim prosesinə daxil edilməsi ilə əlaqədar olaraq müəllimin funksiyası da dəyişir. Müəllimdən əsaslı texniki hazırlıq və müasir elektron cihazlardan bacarıqla istifadə etmək tələb olunur. Şagirdlərdə monoloji şifahi nitqi inkişaf etdirmək üçün ünsiyyətin yaranması üçün şagirdin lüğət ehtiyatının zənginliyi əsas şərtlərdəndir. Söz ehtiyatı şagirdlərdə davamlı olsa, onlar öz fikirlərini başqalarına çatdırmaqda çətinlik çəkməzlər. Şagirdlərə öyrədilən yeni sözlər mütəmadi olaraq təkrar etdirilməlidir. Komenskiyə görə verilən hər bir sözü, qaydanı şagirdlər müəllim kimi bilənə qədər təkrar etməlidir. Onun fikrincə verilən materiallar hər bir dərs gününün sonunda təkrar edilməlidir. (4, 6-8)

Monoloji şifahi nitqin inkişafında texniki vasitələrlə yanaşı müxtəlif əyani vasitələrdən də istifadə olunur. K.Uşinski yazmışdır: "Əgər siz danışdırmaqda çətinlik çəkdiyiniz sinfə daxil olursunuzsa, şəkil göstərməyə başlayın, bu zaman sinif dilə gələcək, həm də azad və sərbəst surətdə danışacaqlar" (1,106)

Təcrübə göstərir ki, şagirdlərin əksəriyyəti ekskursiyada gördüklərinin, müşahidə etdiklərinin təsvirini verməkdə fikrini şifahi şəkildə ifadə etməkdə çətinlik çəkirlər. Bu prosesdə hadisənin baş verməsi, gedişi üzərində bilavasitə müşahidə olmadığından, obyekt gözləri önündən uzaqda olduğundan bəzən nədən və necə başlayacaqlarını və nə ilə qurtaracaqlarını bilmir, bəzən də əsas hissəni unudur, ardıcıllığı pozurlar. Nəticədə onların nitqlərində anlaşılmazlıq, qeyri-dəqiqlik özünü göstərir, fikri monoloji şəkildə şərh edilmir, şəkil üzərində iş monoloji nitqin inkişafında çox faydalıdır.

Şagirdlər müəllimlərin istiqamətverici suallarının köməyi ilə şəkilləri asanlıqla təsvir edirlər. Çünki, şəkillər şagirdləri düşündürür, fikirləşməyə vadar edir. Bu zaman onlar təsvir olunan hadisənin necə başlanmasını, inkişafını və finalını müəyyənləşdirməyə çalışırlar. Beləliklə, hər şəkil şagirddə müəyyən fikir oyadır.

Oyunlar, ingilis dili dərslərini bu şagirdlər üçün daha maraqlı ünsiyyət alanına çevirir və onlar ingilis dilində fikirlərini ifadə etməyə, sual verməyə, yardım istəməyə və s. çalışırlar. Tədris prosesində tez-tez rast gəlinən məsələlərdən biri də şagirdlərdə bu yaddaş növlərindən birinin digərlərinə nisbətən daha yaxşı inkişaf olmasıdır. Bunu nəzərə alaraq müəllim dərs dediyi şagirdlərdə hansı yaddaş tipinin olduğunu dəqiqləşdirməsidir. Hər üç yaddaş tipinin növünü özündə birləşdirən qarışıq yaddaş tipini inkişaf etdirməsi tədrisin vacib şərtlərindəndir.

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 7, 2025*
*Səh. 268-272*

Elə şagirdlər də vardır ki, onlarda nitq bacarıq və vərdişlərini inkişaf etdirmək üçün təlim prosesini hərəki fəaliyyətlə uyğunlaşdırılmalıdır.
İngilis dilində şifahi nitqin vərdişlərinin aşılanmasının başlıca xüsusiyyətlərindən biri də şagirdlərin onlara təqdim olunan yeni söz, ifadə, qaydanı yadda saxlamalı olduqlarını dərk etməlidirlər. Qarşıda hər kəs üçün anlaşılan bir məqsədin olması diqqətin mərkəzləşməsini, hafizənin itiliyini stimullaşdırır. Nitq situasiyasının yaradılması və nümunələrin təhlili monoloji şifahi nitqin inkişaf etdirilməsinin ən düzgün metodu hesab olunur.

Nəticə olaraq onu qeyd etmək istəyirəm ki, texniki təlim vasitələri hər hansı bir informasiyanın, materialın şagirdlərə yüksək səviyyədə çatdırılmasına şərait yaradır. Video materialların istifadəsi informasiyanın mənimsəməsinə, xarici dil mühitini yaratmasına kömək edir.

Müəllimlər video və audio materiallardan tədrisdə daha çox istifadə etməlidirlər. Bununla da onlar tədrisin keyfiyyətini daha da yüksəldəcək söz ehtiyatını artıracaq və şagirdlərin diqqətini inkişafa doğru yönəldəcək. Beləliklə, şagirdlərdə fənnə qarşı maraq oyatmış olacaqlar.

**BAHADURZADA RANA NIZAMI'S GIZI,**

## Tools used in the development of monologue oral speech and their psychological characteristics

**SUMMARY**

Speech is a means of human interaction and communication, based on the expressive capabilities of language. It is in dialectical unity with thinking and allows a person to express his thoughts in a clear, logical sequence. Pronunciation, intonation, facial expressions, gestures and emotional tones play an important role in oral speech, while written speech has more limited capabilities.

In particular, monologue speech allows a person to freely express their thoughts, and one of the main tasks in education is to develop this ability in students. Correct pronunciation, mastering word and sentence connections, and teaching intonation rules are important conditions for the development of oral speech.

In modern times, books, television, movies, technical tools and various role-playing games are important factors shaping students' speech. Students learning a foreign language should be introduced to the language environment and taught to think and speak in that language. For this, the use of listening texts, movie fragments and other motivating materials is of great importance.

In the development of students' speech, not only linguistic, but also psychological and physiological characteristics should be taken into account. Such an approach allows for the strengthening of oral communication skills in both the native language and a foreign language.

**Key words:** speech, development, school, student, method, foreign language

**БАХАДУРЗАДЕ РЕНА НИЗАМИ КЫЗЫ,**

**Средства, используемые для развития монологической устной речи, и их психологические особенности**

**РЕЗЮМЕ**

Речь – средство человеческого общения и взаимодействия, основанное на выразительных возможностях языка. Она находится в диалектическом единстве с мышлением и позволяет человеку выражать свои мысли в ясной, логической последовательности. Произношение, интонация, мимика, жесты и эмоциональная окраска играют важную роль в устной речи, в то время как письменная речь обладает более ограниченными возможностями.

В частности, монологическая речь позволяет человеку свободно выражать свои мысли, и развитие этой способности у учащихся является одной из основных задач образования. Правильное произношение, усвоение связей слов и предложений, обучение правилам интонации являются важными условиями развития устной речи.

В современном мире книги, телевидение, кино, технические средства и различные ролевые игры играют важную роль в формировании речи учащихся.

Студентов, изучающих иностранный язык, необходимо знакомить с языковой средой и учить думать и говорить на этом языке. Для этого большое значение имеет использование текстов для аудирования, фрагментов фильмов и других мотивирующих материалов.

При развитии речи учащихся необходимо учитывать не только языковые, но и психофизиологические особенности. Такой подход позволяет укреплять навыки устного общения как на родном, так и на иностранном языке.

**Ключевые слова:** речь, развитие, школа, ученик, метод, иностранный язык

**Ədəbiyyat**

1. Ə.M.Dəmirçizadə “Müasir Azərbaycan dili” Bakı-1984
2. F.Seyidov “Şifahi nitqin texniki vasitələrlə inkişaf etdirmə yolları” Bakı,Maarif-1970,144s.
3. N.Ə.Abdullayev “Orfoqrafiya və orfoepiya təlimi məsələləri” Bakı-2008
4. A.T.Tahirov “Şifahi nitqin inkişafında təkrarın rolu” Bakı,1969,77s

**Rəyçi: prof. Yadulla Ağazadə**